**“Təsdiq edirəm”**
EduLAB Academy MMC-nin direktoru

_______________**Rəhimə Məcidova**
05 yanvar 2026-cı il

# EduLAB Academy MMC – “EduLAB Chess School” tərəfindən 17, 18 və 24 yanvar 2026-cı il tarixlərində təşkil olunacaq şahmat üzrə II, III və IV dərəcə normaları üzrə təsnifat turnirinin ƏSASNAMƏSİ

## 1. Məqsəd və vəzifələr

1.1. Əhali arasında şahmatın populyarlaşdırılması;
1.2. Şahmat idman növünün təbliği və inkişaf etdirilməsi;
1.3. Yeni şahmata başlayanların şahmatla müntəzəm məşğul olmağa cəlb edilməsi;
1.4. Şahmatçıların idman məharətinin yüksəldilməsi uşaq və yeniyetmələr arasında vətənpərvərlik, dostluq və idman əlaqələrinin möhkəmləndirilməsinə kömək etmək;
1.5. Ustalıq səviyyəsinin artırmaq;
1.6. Şahmatçıların analitik və məntiqi qabiliyyətlərini inkişaf etdirmək.

## 2. Turnirin təsisçisi

Turnirin təşkili və keçirilməsinə ümumi rəhbərlik EduLAB Academy MMC-nin “EduLAB Chess School”u tərəfindən həyata keçirilir.

## 3. Turnirin təşkili

### 3.1. Turnirin keçirilmə tarixi

Turnir aşağıdakı tarixlərdə keçiriləcəkdir.

| SS | Dərəcə | I, II, III tur | IV, V, VI tur | VII, VIII, IX tur | Başlama saatı |
|---|---|---|---|---|---|
| 3.1.1. | II dərəcə üçün | 17.01.2026 | 18.01.2026 | 24.01.2026 | 10:00 |
| 3.1.2. | III dərəcə üçün | 17.01.2026 | 18.01.2026 | 24.01.2026 | 14:00 |
| 3.1.3. | IV dərəcə üçün | 17.01.2026 | 18.01.2026 | 24.01.2026 | 10:00 |

**Qeyd:** *Turlar hər bir Şahmatçıya verilmiş vaxtın ən geci iki misli qədər müddət ərzində başa çatır. Turlar arasında növbəti tura hazırlıq işlərinin tamamlanması üçün tələb olunan vaxt (təqribən 15 dəqiqə) nəzərə alınmaqla növbəti tur başlanır. Əgər turlar nəzərdə tutulmuş maksimum müddətdən daha tez başa çatarsa, II, III, V, VI, VIII və IX turların başlanma vaxtı (hər bir dərəcə üzrə ayrıca olmaqla) oyun cədvəlində göstərilən vaxtdan daha erkən ola bilər.*

### 3.2. İştirak haqqı və Şahmatçılara dair tələblər

3.2.1. İştirak haqqı və Şahmatçılara dair tələblər aşağıdakı kimidir:

| SS | Dərəcə | İştirak haqqı | Tələb |
|---|---|---|---|
| 3.2.1.1. | GROUP A-II dərəcə | 20 AZN | |
| 3.2.1.2. | GROUP B-III dərəcə | 20 AZN | |
| 3.2.1.3. | GROUP C-IV dərəcə | 20 AZN | 11 yaşadək |

3.2.2. Yarışda iştirakdan imtina edilən zaman iştirak haqqı geri qaytarılmır;
3.2.3. Təşkilat Komitəsi tərəfindən Şahmatçının kənarlaşdırılmasına dair qərar qəbul edildiyi zaman iştirak haqqı *(əgər iştirak haqqı nəzərdə tutulmuşdursa)* geri qaytarılmır.

### 3.3. Turnirə qeydiyyat

| SS | Məlumat | Açıqlama |
|---|---|---|
| 3.3.1. | İştirakçı qeydiyyatı | Turnirdə iştirak üçün son qeydiyyat tarixinə (*3.3.2*) qədər əlaqə bölməsində (*3.3.7*) qeyd edilmiş WhatsApp nömrəsinə aşağıdakı məlumatlar göndərilməlidir:<br>1) Şahmatçının soyadı, adı, ata adı;<br>2) İştirak etmək istədiyi qrup:<br>a. GROUP A-II dərəcə<br>b. GROUP B-III dərəcə<br>c. GROUP C-IV dərəcə<br>3) Şəxsiyyət vəsiqəsinin surəti;<br>4) İştirak haqqının ödəməsinə dair qəbzin surəti (*ödəniş ediləcək hesab barədə məlumat 3.3.6*);<br>5) Şahmat məktəbinin adı (*əgər məktəbi təmsil edirsə*);<br>6) Şahmatçının WhatsApp nömrəsi. |
| 3.3.2. | Son qeydiyyat tarixi | **16.01.2026**-cı il saat **18:00** qədər |
| 3.3.3. | Təşkilati iclas və püşkatma | 09:30 |
| 3.3.4. | Turnirin birinci (*hər gün üçün*) mərhələsinin başlanğıcı | **4-cü** və **2-ci** dərəcə uğrunda **10:00**<br>**3-cü** dərəcə uğrunda **14:00** |
| 3.3.5. | Turnirin keçirilmə yeri | EduLAB Academy MMC – “EduLAB Chess School", Bakı şəhəri, Nizami rayonu, Şirin Mirzəyev 29 (*köhnə ünvanla Nəsimi küçəsi 8A, Zəngi liseyinin yanı*) ünvanında |
| 3.3.6. | Ödəniş ediləcək hesab | **AZ79AIIB400900E9443641006207**<br>VÖEN: **1604943221** |
| 3.3.7. | Əlaqə məlumatı | WhatsApp: **+994-10-311-0-244**<br>Çağrı mərkəzi: **+994-12-311-0-244**<br>Email: info@edulab.academy |

### 3.4. Təşkilat Komitəsi

Turnirin keçirilməsi üçün turnirin təsisçisinin nümayəndələrinin daxil olduğu Təşkilat Komitəsi və Apelyasiya Komissiyası yaradılır.

Turnir iştirakçılarından qruplar formalaşdırır, turnirin formasını, qaydasını və şərtlərini müəyyən edir, nəticələri təsdiq edir, turnirin hakimliyini həyata keçirir, Apelyasiya Komissiyasını yaradır.

Apelyasiya Komissiyasının üzvlərinin seçilməsi Təşkilat Komitəsi tərəfindən həyata keçirilir. 1 sədr, 2 üzvdən və 1 nəfər ehtiyat üzvdən ibarət olur.

### 3.5. Apelyasiya Komissiyası

Komissiya müraciətlərə baxır, turnirin keçirilməsi qaydasına nəzarət edir, turnirin təşkili ilə bağlı təkliflər verir.

Şikayət yalnız hakimlik səhvi aşkar edildikdə, yarışın keçirilməsi ilə bağlı nöqsanlar olduğu zamanı verilir. Şikayətlər yarışın başa çatmasından 1 (*bir*) saatdan gec olmayaraq şikayətçi tərəfindən 100 AZN depozit ödənildiyi təqdirdə protokollaşdırılır. Müsbət qərar qəbul edildikdə depozit şikayətçiyə geri qaytarılır.

### 3.6. Qaliblər və mükafatlar

3.6.1. Xallar bərabər olarsa yerlər əmsalların aşağıdakı ardıcıllığı ilə müəyyən olunacaq:
- 3.6.1.1. Şəxsi görüşün nəticələri;
- 3.6.1.2. Buhqolts əmsalı;
- 3.6.1.3. Qısaldılmış Buhqolts əmsalı;
- 3.6.1.4. Qələbələrin sayı.

3.6.2. Mükafatlar:
- 3.6.2.1. I yer – Medal, Diplom, Kubok;
- 3.6.2.2. II və III yerlərə Medal, Diplom;

3.6.2.3. Təltif olunma mərasimi barədə məlumat “EduLAB Chess School”un sosial media hesablarında (*3.9*) verilir.

## 3.7. Turnirin keçirilmə yeri və qaydaları

3.7.1. Bütün qruplar üzrə turnirlər EduLAB Academy MMC-nin “EduLAB Chess School"da – Bakı şəhəri, Nizami rayonu, Şirin Mirzəyev 29 *(köhnə ünvanla Nəsimi küçəsi 8A, Zəngi liseyinin yanı)* ünvanında keçiriləcək;

3.7.2. Turnir FİDE qaydalarına uyğun olaraq kompüter püşkatma üsulu ilə İsveçrə sistemi üzrə keçiriləcək;

3.7.3. Qruplar üzrə vaxt reqlamenti və tələblər:

| SS | Qrup | Tur sayı | Turlar üçün vaxt nəzarəti |
|---|---|---|---|
| 3.7.3.1. | GROUP A-II dərəcə | 9 | Hər bir Şahmatçı üçün 45 dəqiqə |
| 3.7.3.2. | GROUP B-III dərəcə | 9 | Hər bir Şahmatçı üçün şərti 30 dəqiqə nəzərə almaqla ümumi oyun müddəti 1 saat təşkil edir |
| 3.7.3.3. | GROUP C-IV dərəcə | 9 | Hər bir Şahmatçı üçün şərti 30 dəqiqə nəzərə almaqla ümumi oyun müddəti 1 saat təşkil edir |

**Qeyd:** *III və IV dərəcələr üzrə aparılan mübarizədə ümumi oyun müddətinin son 10 dəqiqəsi ərzində şahmatçıların gedişləri qeyri-müəyyən vaxt aldıqda, hakimin qərarı ilə vaxt nəzarəti tətbiq edilə bilər.*

3.7.4. Şahmatçı *(o cümlədən onu müşayiət edən şəxs(lər))* turnirin keçirildiyi məkanda etik davranış qaydalarına əməl etməli, Təşkilat Komitəsi tərəfindən verilmiş təlimata uyğun hərəkət etməlidir. Qeyd edilən tələblərin pozulması Təşkilat Komitəsi tərəfindən bu Şahmatçını turnirdən kənarlaşdırılmasına dair qərarı üçün əsas hesab olunur;

3.7.5. Turnirin Təsisçisi turnir zamanı Şahmatçıların (*o cümlədən onu müşayiət edən şəxs(lər)in*) video və fotosu əks olan məlumatları toplamaq, sosial media hesablarında paylaşmaq hüququnu özündə saxlayır;

3.7.6. Əsasnamənin 3.7.4-cü bəndində nəzərdə tutulan hallar baş verdiyi təqdirdə *(Təşkilat Komitəsi tərəfindən kənarlaşdırma olmasa belə)* Turnirin Təsisçisi tərəfindən təşkil olunacaq növbəti turnirlərdə bu hərəkətə yol vermiş Şahmatçının iştirakını məhdudlaşdırmaq hüququnu özündə saxlayır;

3.7.7. Turnirdə iştirak etməklə bu Əsasnamənin bütün tələblərinin Şahmatçıların (*o cümlədən onu müşayiət edən şəxs(lər)*) tərəfindən qəbul edilmiş hesab olunur.

## 3.8. Hakim

Turnirə 1-ci dərəcəli idman hakimi **İlkin Rəhimli** (13401394) hakimlik edir.

## 3.9. Sosial media hesabları

Facebook
https://www.facebook.com/EduLABChessSchool

Instagram
https://www.instagram.com/EduLAB.Chess

WhatsApp
https://whatsapp.com/channel/0029VamNhZbCnA7quvs17U0N

Telegram
https://t.me/EduLABChessSchool

Linkedin
https://www.linkedin.com/company/EduLAB-Chess-School

YouTube
https://www.youtube.com/@EduLABChessSchool